# **İkiqat vergitutmanın** aradan qaldırılması haqqında **beynəlxalq müqavilələrin** inzibatçılığı Qaydalarında **dəyişiklik** edilib

AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ

İqtisadiyyat Nazirliyinin Kollegiyasının qərarı ilə "Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin inzibatçılığı Qaydaları"nın və müvafiq sənədlərin doldurulması qaydalarının təsdiq edilməsi haqqında" 2017-ci il 12 iyun tarixli Qərarında dəyişiklik edilib.

Qərara əsasən "Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin inzibatçılığı Qaydaları"na bir sıra əhəmiyyətli dəyişikliklər olunub və yeni Əlavələr təsdiq edilib.

Bu qaydalar Azərbaycan Respublikası ilə hər hansı xarici dövlət arasında imzalanmış və müvafiq dövlətdaxili prosedurlara uyğun qaydada qüvvəyə minmiş gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin icrasının təmin edilməsini müəyyənləşdirir.